# Yeni müsəlman üçün müxtəsər faydalı biliklər

Hazırlayan
**Muhamməd əş-Şəhri**

المختصر المفيد للمسلم الجديد -أذري

بيان الإسلام
Bayan AL-Islam

ح جمعية الدعوة و الارشاد وتوعية الجاليات بالربوة ، ١٤٤٥هـ

الشهري ، محمد

المختصر المفيد للمسلم الجديد - أذري. / محمد الشهري - ط.١ -.

الرياض ، ١٤٤٥هـ

٣٤ ص ؛ ١٤ × ٢١ سم

ردمك: ٩-٩٥-٨٤١٧-٦٠٣-٩٧٨

٢٠٨٥٦ / ١٤٤٥

## Partners in Implementation

Content Association

Rowad Translation

Rabwah Association

IslamHouse

This publication may be printed and disseminated by any means provided that the source is mentioned and no change is made to the text.

Tel: +966 50 244 7000

info@islamiccontent.org

Riyadh 13245- 2836

www.islamhouse.com

# Yeni müsəlman üçün müxtəsər faydalı biliklər

Hazırlayan
**Muhammməd əş-Şəhri**
2020 -1441

Mərhəmətli və Rəhmli Allahın adı ilə

## Müqəddimə

Həqiqətən həmd, Allaha məxsusdur! Biz Ona həmd edir, Ondan yardım diləyir və Ondan bağışlanma istəyirik. Nəfslərimizin şərindən və əməllərimizin pisliyindən Ona sığınırıq. Allah kimi doğru yola yönəldərsə, onu azdıran, kimi də azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şəhadət verirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur. O təkdir. Onun şəriki yoxdur. Həmçinin şəhadət verirəm ki, Muhamməd Onun qulu və elçisidir.

Daha sonra

Uca Allah Adəm övladını dəyərli edərək onu yaratdıqlarının bir çoxundan üstün etdi. Uca Allah belə buyurur:

﴿وَلَقَدۡ كَرَّمۡنَا بَنِيٓ ءَادَمَ﴾ [الإسراء: 70]

﴿Biz Adəm oğullarını hörmətli etdik﴾. (əl-İsra: 70).

Uca Allah bu ümmətə olan dəyərini artıraraq, onlara peyğəmbərlərinin ən əfzəli olan Muhamrnədi -sallallahu aleyhi va səlləm- göndərdi, onlara kitablarının ən xeyirlisi olan Qurani-Kərimi nazil etdi və onlar üçün dinlərin ən əzəmətlisi olan İslam dinini bəyənib seçdi.

﴿كُنتُمۡ خَيۡرَ أُمَّةٍ أُخۡرِجَتۡ لِلنَّاسِ تَأۡمُرُونَ بِٱلۡمَعۡرُوفِ وَ تَنۡهَوۡنَ عَنِ ٱلۡمُنكَرِوَتُؤۡمِنُونَ بِٱللَّهِۗ وَلَوۡ ءَامَنَ أَهۡلُ ٱلۡكِتَٰبِ لَكَانَ خَيۡرًا لَّهُمۚ مِّنۡهُمُ ٱلۡمُؤۡمِنُونَ وَأَكۡثَرُهُمُ ٱلۡفَٰسِقُونَ﴾ [آل عمران: 110]

﴿Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz, (onlara) yaxşı işlər görməyi əmr edib, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə (haqq yolunu azmış) fasiqlərdir﴾. (Ali-İmran: 110).

Uca Allahın insana bəxş etdiyi böyük nemətlərindən biri də, onu İslama yönəltməsi, onun dinində sabit qalması, onu bu

dinin əhkamlarına və şəri hökmlərinə əməl etməyə müvəffəq etməsidir. Həcmi kiçik, lakin, məzmunu böyük olan bu kitabda, yeni hidayət olunan müsəlman, dində bilinməsi zəruri olan məsələləri və bu əzəmətli dinin ən önəmli xüsusiyyətlərini müxtəsər şəkildə öyrənir. Nəhayət, bunları anlayıb, əməl etdikdən sonra Uca Rəbbi, Peyğəmbəri Muhamməd -sallallahu aleyhi va səlləm- və dini İslam haqqında biliyinin artması üçün elmini dərinləşdirir. Beləliklə də, Uca Allaha, bəsirət və elmlə ibadət edir. Uca Allaha ibadət edərək Ona yaxınlaşmaqla və Peyğəmbəri Muhammədin -sallallahu aleyhi va səlləm- sünnəsinə tabe olmaqla qəlbi rahatlaşır və imanı artır.

Uca Allahdan bu kitabda olan hər bir kəlməni bərəkətli etməsini, bununla İslama və müsəlmanlara fayda verməsini, bu əməli xalis Onun rizası üçün olan əməllərdən etməsini və savabını sağ və vəfat etmiş bütün müsəlmanlar üçün etməsini istəyirəm.

Allahın salatı və salamı peyğəmbərimiz Muhammədin, onun ailəsinin və bütün səhabələrinin üzərinə olsun!

Muhamməd bin əş-Şeybə əş-Şəhri

Hicri: 1441/ 11 /2

## Rəbbim Allahdır.

Uca Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلنَّاسُ ٱعۡبُدُواْ رَبَّكُمُ ٱلَّذِي خَلَقَكُمۡ وَٱلَّذِينَ مِن قَبۡلِكُمۡ لَعَلَّكُمۡ تَتَّقُونَ﴾

[البقرة: 21]

﴾Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə Ondan qorxasınız (əl-Bəqərə: 21).

Uca Allah buyurur:

﴿هُوَ ٱللَّهُ ٱلَّذِي لَآ إِلَٰهَ إِلَّا هُوَ﴾ [الحشر: 22]

﴾O, Özündən başqa (ibadətə layiq) heç bir ilah olmayan Allahdır﴿. (əl-Həşr: 22).

Uca Allah buyurur:

﴿لَيۡسَ كَمِثۡلِهِۦ شَيۡءٞۖ وَهُوَ ٱلسَّمِيعُ ٱلۡبَصِيرُ﴾ [الشورى: 11]

﴾Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir﴿. (əş-Şura: 11).

Allah, mənim və hər bir şeyin Rəbbidir. Mülkün sahibidir, yaradandır, ruzi verəndir, hər bir şeyi idarə edəndir.

İbadətə yalnız O, layiqdir. Ondan başqa Rəbb və İlah yoxdur.

Uca Allahın Özü üçün isbat etdiyi və Peyğəmbərinin - sallallahu aleyhi va səlləm- Onun üçün isbat etdiyi ən gözəl adlar və ən uca sifətlər Ona məxsusdur. Bu adlar və sifətlər mükəmməllikdə və gözəllikdə kamilliyin ən uca məqamına yetişmişdir. Onun heç bir bənzəri yoxdur. O, eşidəndir, görəndir.

Uca Allahın ən gözəl adlarından bəziləri aşağıdakılardır:

Ər-Razzaq, Ər-Rahmən, Əl-Qadir, Əl-Məlik, Əs-Səmi, Əs-Sələm, Əl-Basir, Əl-Vəkil, Əl-Xaliq, Əl-Latif, Əl-Kəfi, Əl-Ğafur.

Ər-Razzaq: Qulların qəlblərinin və bədənlərinin yaşamı üçün zəruri olan qidalarına zamin olan.

Ər-Rahmən: Rəhməti hər bir şeyi əhatə etmiş geniş mərhəmət sahibi.

Əl-Qadir: Zəiflik və acizlikdən uzaq kamil qüdrət sahibi.

Əl-Məlik: O, əzəmət, qalib gəlmə və idarə etmə kimi sifətlərlə vəsflənmişdir. O, hər bir şeyin sahibidir və hər bir şeyi idarə edib, yoluna qoyandır.

Əs-Səmi: Gizli də və açıq da olan bütün səsləri eşidən.

Əs-Sələm: Hər bir nöqsan, qüsur və eyib sifətlərdən salamat olan.

Əl-Basir: Ən xırda incəliyinə qədər gözü ilə hər bir şeyi görən, hər bir şeyi ən yaxşı şəkildə idrak edən, hər bir şeydən xəbərdar olan və hər bir şeyi daxilinə qədər bilən.

Əl-Vəkil: Yaratdıqlarının ruzisinə kəfil olan, mənafelərini təmin edən, dostlarını sevib, bütün işlərini asanlaşdıraraq onlara yetərli olan.

Əl-Xaliq: Hər şeyi bənzəri olmayan bir şəkildə yaradan, ixtira edən.

Əl-Latif: Qullarına qarşı səxavətli olan, onlara rəhm edən və dilədiklərini verən.

Əl-Kəfi: Qullarının bütün ehtiyaclarını ödəyən. Öz köməyi ilə qullarını başqasının yardımından və onlara möhtac olmaqdan qoruyan.

Əl-Ğafur: Qullarını, etdikləri günahlarının şərindən qoruyan və günahlarına görə onları cəzalandırmayan.

Müsəlman kimsə Uca Allahın yaratdığındakı qəribəlikləri və Onun, bu yaradılış üçün əlverişli şəratin təmin etməsini təfəkkür edir. Buna nümunə olaraq: Canlıların öz körpələrinə, onlar özləri özlərinin qayğısına qalana qədər qayğı göstərib onları yedizdirməyə həris olmalarını misal çəkmək olar. Bütün bunları yaradan və yaratdığına lütf göstərən Allah, pak və nöqsanlardan uzaqdır. Canlıların yaşamı üçün əlverişli şərait hazırlaması və tamamailə zəif olduqları bir halda həyata uyğunaşmasını təmin etməsi də Onun yaratdıqlarına olan lütfündəndir.

## Peyğəmbərim Muhamməddir -sallallahu aleyhi va səlləm-

Uca Allah buyurur:

﴿لَقَدۡ جَآءَكُمۡ رَسُولٞ مِّنۡ أَنفُسِكُمۡ عَزِيزٌ عَلَيۡهِ مَا عَنِتُّمۡ حَرِيصٌ عَلَيۡكُم بِٱلۡمُؤۡمِنِينَ رَءُوفٞ رَّحِيمٞ﴾ [التوبة: 128]

﴾Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir﴿. (ət-Tövbə: 128).

Uca Allah buyurur:

﴿وَمَآ أَرۡسَلۡنَٰكَ إِلَّا رَحۡمَةٗ لِّلۡعَٰلَمِينَ﴾ [الأنبياء: 107]

﴾Biz səni ancaq aləmlərə rəhmət olaraq göndərdik﴿. (Ənbiya: 107).

Muhamməd -sallallahu aleyhi va səlləm- doğru yol göstərən rəhmət peyğəmbəridir.

O, Adullah oğlu Muhamməd -sallallahu aleyhi va səlləm- peyğəmbərlərin və elçilərin sonuncusudur. Uca Allah onu İslam dininiylə bütün insanlara göndərdi ki, onları, ən əzəmətlisi tövhid olmaqla xeyirə yönəltsin və ən əzəmətlisi şirk olmaqla şərdən çəkindirsin.

Əmr etdiklərinə itaət etmək, xəbər verdiklərini təsdiqləmək, qadağan edib çəkindirdiyi şeylərdən uzaq durmaq, Allaha yalnız onun bildirdiyi şəkildə ibadət etmək vacibdir.

Onun və ondan öncəki bütün peyğəmbərlərin şəriəti, tək olan və heç bir şəriki olmayan Uca Allaha ibadət etməyə çağırışdır.

Muhamməd peyğəmbərin -sallallahu aleyhi va səlləm- sifətlərindən bəzilər aşağıdakılardır:

Doğruluq, mərhəmət, yumşaqlıq, səbir, şücaət, səxavət, gözəl əxlaq, ədalət, təvazökarlıq, bağışlamaq və s.

## Qurani-Kərim Rəbbimin kəlamıdır.

Uca Allah buyurur:

﴿يَٰٓأَيُّهَا ٱلنَّاسُ قَدۡ جَآءَكُم بُرۡهَٰنٞ مِّن رَّبِّكُمۡ وَأَنزَلۡنَآ إِلَيۡكُمۡ نُورٗا مُّبِينٗا﴾ [النساء: 174]

﴿Ey insanlar! Rəbbinizdən sizə bir dəlil gəldi və Biz sizə aydın bir nur (Quran) nazil etdik﴾. (ən-Nisa: 174).

Qurani-Kərim Uca Allahın, insanları zülmətlərdən nura çıxarmaq və onları doğru yola yönəltmək üçün peyğəmbəri Muhammədə -sallallahu aleyhi va səlləm- nazil etdiyi kəlamıdır.

Kim onu oxuyarsa, o, böyük əcrə nail olar. Kim onunla əməl edərsə, onu doğru yola yönəldər.

## İslamın rükunları ilə tanış oluram

Peyğəmbər -sallallahu aleyhi va səlləm- belə buyurmuşdur: (İslam dini beş əsas üzərində bina edilmişdir: Allahdan başqa haqq ilahın olmadığına və Muhammədin Allahın Rəsulu olduğuna şahidlik etmək, namaz qılmaq, zəkət vermək, ramazan orucunu tutmaq və həccə getmək).

İslamın rükunları hər bir müsəlmana vacib olan ibadətlərdir. İnsanın İslamı yalnız bu ibadətlərin vacibliyini etiqad edib və onları yerinə yetirməklə səhih ola bilər. Çünki İslam dini, bu rükunların üzərində bina edilmişdir. Elə buna görə də İslamın rükunları olaraq adlandırılmışdır.

Bu rükunlar aşağıdakılardır:

**Birinci rükun:** Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığına və Muhammədin Allahın Rəsulu olduğuna şəhadət vermək.

Uca Allah buyurur:

﴿فَٱعۡلَمۡ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّا ٱللَّهُ﴾ [محمد: 19]

﴿(Ey Peyğəmbər!) Bil ki, Allahdan başqa (ibadətə layiq olan heç bir) ilah yoxdur﴾. (Muhamməd:19).

Uca Allah buyurur:

﴿لَقَدۡ جَآءَكُمۡ رَسُولٞ مِّنۡ أَنفُسِكُمۡ عَزِيزٌ عَلَيۡهِ مَا عَنِتُّمۡ حَرِيصٌ عَلَيۡكُم بِٱلۡمُؤۡمِنِينَ رَءُوفٞ رَّحِيمٞ﴾ [التوبة: 128]

﴾Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir﴿. (ət-Tövbə: 128).

"Lə İləhə illəllah" şəhadət kəlməsinin mənası. Yəni: Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur- deməkdir.

"Muhammədən Rasulullah" şəhadət kəlməsinin mənası. Yəni: Muhamməd Peyğəmbərin -sallallahu aleyhi va səlləm- əmr etdiklərinə itaət etmək, xəbər verdiklərini təsdiqləmək, qadağan edib çəkindirdiklərndən uzaq durmaq və Uca Allaha yalnız onun gətirdiyi şəriət üzərində ibadət etmək.

**İkinci rükun:** Namaz qılmaq.

Uca Allah buyurur:

﴿وَأَقِيمُواْ ٱلصَّلَوٰةَ﴾ [البقرة: 110]

﴾Namaz qılın﴿. (əl-Bəqərə: 110).

Namaz, Uca Allahın şəriətinə müvafiq və Rəsulu Muhammədin -sallallahu aleyhi va səlləm- bizə öyrətdiyi bir şəkildə əda edilməlidir.

## Üçüncü rükun: Zəkat vermək.

Uca Allah buyurur:

﴿وَءَاتُواْ ٱلزَّكَوٰةَ﴾ [البقرة: 110]

﴾Zəkat verin﴿. (əl-Bəqərə: 110).

Uca Allah, zəkatı, müsəlman kimsənin imanının səmimiyyətini imtahan etmək, Rəbbinin ona bəxş etdiyi var-dövlət nemətinə görə Ona şükür etmək, yoxsul və ehtiyac sahiblərinə yardım etmək üçün fərz etmişdir.

Zəkat, onu zəkata layiq olan insanlara verilməklə gerçəkləşmiş olur.

Zəkat, əlimizdə olan malın bəlli bir miqdara çatması ilə vacib olan bir haqdır. Bu haqq, Uca Allahın Qurani-Kərimdə qeyd

etdiyi səkkiz sinif insanlara verilir. Bunlar arasında fəqirlər və miskinlərdə vardır.

Zəkatın verilməsində, rəhmət və şəfqət, müsəlmanın əxlaqının və malının təmizlənməsi, fəqirləri və miskinləri razı salmaq, müsəlman cəmiyyətinin fərdləri arasında sevgi və qardaşlıq bağlarının gücləndirilməsi vardır. Çünki saleh müsəlman zəkatı könül xoşluğuyla çıxarır və bunula da digər insanları sevindirir.

Yığılıb saxlanılmış: qızıl, gümüş, pul və qazanc əldə etmək məqsədilə alqı satqı üçün hazırlanan ticarət mallarınıdan verilməsi gərəkən zəkat malının miqdarı (% 2,5) faizidir. Bu malın, müəyyən miqdara çatması və bu məbləğin üzərindən kamil bir ilin keçməsi şərtdir.

Zəkat həmçinin, sahibinin yemləndirmədiyi, əksinə, ilin çox hissəsini çöldə, Allahın bitirdiyi bitkilərlə qidalanan heyvanlardan (dəvədən, inəkdən, qoyundan) müəyyən ədədə sahib olan kimsəyə də vacibdir.

Bundan başqa, müəyyən miqdara çatmış: yerdən çıxan dənli bitkilərdən, meyvələrdə, mədən və xəzinələrdən zəkat çıxarmaq vacibdir.

## Dördüncü rükün: Ramazan orucunu tutmaq.

Uca Allah buyurur:

﴿يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ كُتِبَ عَلَيْكُمُ ٱلصِّيَامُ كَمَا كُتِبَ عَلَى ٱلَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ﴾ [البقرة: 183]

﴿Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, bəlkə (Allahdan) qorxasınız﴾. (əl-Bəqərə: 183).

Ramazan ayı, hicri təqvimlə ilin doqquzuncu ay olub, müslümanların nəzdində əzəmətli olan bir aydır. Bu ayın, ilin digər ayları arasında xüsusi bir yeri vardır. Bu ayı kamil olaraq oruç tutmaq İslamın beş şərtindən biridir.

Ramazan orucu, mübarək Ramazan ayının günlərində, fəcir namazının vaxt girdikdən, günəş batana qədər: yeməkdən, içməkdən, cinsi əlaqədən və digər orucu batil edən şeylərdən uzaq duraraq Uca Allah edilən bir ibadət növüdür. Beşinci rükun: Allahın haram evini həcc etmək.

Uca Allah buyurur:

﴿وَلِلَّهِ عَلَى ٱلنَّاسِ حِجُّ ٱلۡبَيۡتِ مَنِ ٱسۡتَطَاعَ إِلَيۡهِ سَبِيلٗاۚ﴾ [آل عمران: 97]

﴾Yoluna (ərzaq, minik, və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur﴿. (Əli-İmran: 97).

Həcc, yoluna gücü çatan insana ömründə bir dəfə vacib edilmişdir. Həcc: Məkkəi Mükərrəmədəki Allahın haram evini və digər həcc edilən müqəddəs məkanlarda (Arafatda, Müzdəlifədə və Minada) müəyyən ibadətləri, müəyyən zamanda əda etmək üçün Məkkəyə həcc niyyəti ilə getməkdir. Peyğəmbərimiz -sallallahu aleyhi va səlləm- və ondan öncəki peyğəmbərlər də həcc etmişdir. Uca Allah, İbrahimə -aleyhissalam- insanlara həcc ibadətini əda etmələri üçün həccə gəlmələrini elan etməsini əmr etmişdir. Uca Allah Qurani-Kərimdə bu barədə belə buyurur:

﴿وَأَذِّن فِي ٱلنَّاسِ بِٱلۡحَجِّ يَأۡتُوكَ رِجَالٗا وَعَلَىٰ كُلِّ ضَامِرٖ يَأۡتِينَ مِن كُلِّ فَجٍّ عَمِيقٖ﴾ [الحج: 27]

﴾İnsanlar arasında həcci elan et ki, onlar sənin yanına piyada və ya hər bir uzaq yoldan gələn yorğun dəvələr üstündə gəlsinlər﴿. (əl-Həcc: 27)

## İmanın əsaslarıyla tanış oluram

Peyğəmbər -sallallahu aleyhi va səlləm- iman haqqında soruşulduqda belə cavab vermişdir: "İman - sənin Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə, axirət gününə, qədərin xeyrinə və şərinə iman etməyindir". İmanın əsasları hər müsəlmana vacib olan qəlbi ibadətlərdir. İnsanın imanı bu

əsaslara etiqad etmədən doğru olmaz. Elə buna görə də imanın əsasları olaraq adlandırılmışdır.

İmanın əsasları ilə İslamın rükunları arasındakı fərqi: İslamın rükunları, şəhadət kəliməsini söyləmək, namaz qılmaq, zəkat vermək kimi əzalarla edilən zahiri əməllərdir. İmanın əsasları isə Allaha, kitablarına, rəsullarına iman etmək kimi insanın qəlbi ilə etdiyi qəlb əməlləridir.

**İman sözünün anlamı.** Bu sözün mənası: Qəlbin, Allahı, mələklərini, kitablarını, rəsullarını, axirət gününü, qədərin xeyirini və şərrini qəti bir şəkildə təsdiq etməsi, Allah Rəsulunun -sallallahu aleyhi va səlləm- gətirdiyi hər bir şeyə tabe olması və bunu: "Lə iləhə illəllah" deyərək, Quran oxuyaraq, Sübhənallah və Əlhəmdullilləh zikirlərini dil ilə tələffüz edib həyatında tətbiq etməsidir.

Namaz qılmaq, həccə getmək və oruc tutmaq kimi zahiri əməllərlə göstərməsi və Allahı sevmək, Ondan qorxmaq, Ona təvəkkül etmək, əməlləri yalnız Onun rizası üçün etmək kimi qəlbə bağlı olan batini əzalarla icra etməsidir.

Mütəxəsisslər qısaca olaraq imana belə bir tərif veriblər: Qəlblə etiqad etmək, dillə söyləmək, əzalarla əməl etmək. İman, itaətlə artır, günahla azalır.

Birinci rükun: Allaha iman.

Uca Allah buyurur:

﴿إِنَّمَا ٱلۡمُؤۡمِنُونَ ٱلَّذِينَ ءَامَنُواْ بِٱللَّهِ وَرَسُولِهِۦ﴾ [النور: 62]

﴿Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən kimsələrdir﴾. (ən-Nur: 62).

Uca Allaha iman etmək, Onu, rübubiyyətində (Rəbliyində), uluhiyyətində (ibadətin yalnız Ona edilməsində), isim və sifətlərində təkləşdirməyi tələb edir. Bu, aşağıdakıları əhatə edir:

Uca və Pak olan Allahın mövcudluğuna iman etmək.

Uca və Pak olan Allahın rübubiyyətinə iman etmək. Yəni: Onun, hər şeyin sahibi, yaradanı, ruzi vərəni, işlərini idarə edəni olduğuna iman etməkdir.

Uca və Pak olan Allahın uluhiyyətinə iman etmək. Yəni: İbadətə yalnız Onun layiq olduğuna, Onun tək və heç bir şəriki olmadığına və həmçinin namaz qılmaq, dua etmək, nəzir vermək, qurban kəsmək, yardım diləmək və s. bu kimi ibadətin bütün növlərinin yalnız Onun aid olduğuna iman etməkdir.

Uca və Pak olan Allahın isim və sifətlərinə iman etmək. Yəni: Uca Allah, Özü üçün və Peyğəmbəri Muhamməd -sallallahu aleyhi va səlləm- Onun üçün isbat etdiyi ən uca isim və sifətləri isbat etmək və həmçinin, Uca Allah Özündən və Peyğəmbəri Muhamməd -sallallahu aleyhi va səlləm- Ondan inkar etdiyi isim və sifətləri inkar etməkdir. Uca Allahın isim və sifətləri kamilliyin və gözəlliyin ən yüksək mərtəbəsinə çatmışdır. Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir.

**İkinci rükun:** Mələklərə iman.

Uca Allah buyurur:

﴿ٱلۡحَمۡدُ لِلَّهِ فَاطِرِ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضِ جَاعِلِ ٱلۡمَلَٰٓئِكَةِ رُسُلًا أُوْلِيٓ أَجۡنِحَةٖ مَّثۡنَىٰ وَثُلَٰثَ وَرُبَٰعَۚ يَزِيدُ فِي ٱلۡخَلۡقِ مَا يَشَآءُۚ إِنَّ ٱللَّهَ عَلَىٰ كُلِّ شَيۡءٖ قَدِيرٞ﴾ [فاطر: 1]

﴿Həmd, göyləri və yeri yaradan, mələkləri iki, üç və dördqanadlı elçilər edən Allaha məxsusdur! O, yaratdıqlarından istədiyini artırır. Həqiqətən, Allah hər şeyə qadirdir﴾. (Fatir: 1).

Biz, mələklərin qeyb aləmi olduğuna iman edirik. Onlar Uca Allahın nurdan yaratdığı qullarıdır. Uca Allah onları Özünə itaətkar və əmrinə boyun əyən qullar etmişdir.

Mələklər əzəmətli varlıqlardır. Onların gücünü və sayını Allahdan başqa kimsə bilməz. Onlardan hər birinin, Allahın onlara aid etdiyi vəsfləri, isimləri və vəzifələri vardır. Bu

mələklərdən biri də, Allahdan rəsullarına vəhyi nazil etməsi ilə müvəkkəl olan Cəbrail -aleyhissələm- mələkdir.

**Üçüncü rükun:** Kitablara iman.

Uca Allah buyurur:

﴿قُولُوٓاْ ءَامَنَّا بِٱللَّهِ وَمَآ أُنزِلَ إِلَيۡنَا وَمَآ أُنزِلَ إِلَىٰٓ إِبۡرَٰهِـۧمَ وَإِسۡمَٰعِيلَ وَإِسۡحَٰقَ وَيَعۡقُوبَ وَٱلۡأَسۡبَاطِ وَمَآ أُوتِيَ مُوسَىٰ وَعِيسَىٰ وَمَآ أُوتِيَ ٱلنَّبِيُّونَ مِن رَّبِّهِمۡ لَا نُفَرِّقُ بَيۡنَ أَحَدٖ مِّنۡهُمۡ وَنَحۡنُ لَهُۥ مُسۡلِمُونَ﴾ [البقرة: 136]

﴿Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun nəslinə nazil olanlara, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların heç birini digərindən fərqləndirmirik. Biz yalnız Ona təslim olanlarıq!"﴾. (əl-Bəqərə: 136).

Bütün səmavi kitabların Allahın kəlamı olduğunu qəti şəkildə təsdiq etmək.

Bu kitabların, İzzət və Cəlal sahibi olan Allah tərəfindən, qullarına çatdırmaq üçün rəsullarının üzərinə açıq aşkar haqla endiyini təsdiq etmək.

Uca Allah, Peyğəmbəri Muhamməddi -sallallahu aleyhi va sələm- bütün insanlara peyğəmbər olaraq göndərməklə keçmiş şəriətlərin hökmünü onun şəriəti ilə nəsx etmişdir. Qurani-Kərimi digər səmavi kitablar üzərinə hakim edib, onların hökmünü Qurani-Kərimlə nəsx etmişdir. Uca Allah, Qurani-Kərimi hər bir dəyişiklikdən və təhrifdən qorumasını Öz öhdəsinə götürmüşdür. Uca Allah bu haqqda belə buyurur:

﴿إِنَّا نَحۡنُ نَزَّلۡنَا ٱلذِّكۡرَ وَإِنَّا لَهُۥ لَحَٰفِظُونَ﴾ [الحجر: 9]

﴿Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik və Biz də onu qoruyacağıq﴾. (əl-Hicr: 9).

Çünki Qurani-Kərim Uca Allahın bəşəriyyətə göndərdiyi sonuncu kitabdır, Peyğəmbəri Muhamməd -sallallahu aleyhi va

səlləm- rəsulların sonuncusudur və İslam dini, Uca Allahın qiyamətə qədər bəşəriyyət üçün razı qaldığı tək dindir. Uca Allah bu haqqda belə buyurur:

﴿إِنَّ ٱلدِّينَ عِندَ ٱللَّهِ ٱلۡإِسۡلَٰمُۗ﴾ [آل عمران: 19]

﴿Həqiqətən, Allah yanında (haqq) din, İslamdır!﴾. (Əli-İmran: 19).

Uca Allahın Qurani-Kərimdə zikir etdiyi səmavi kitablar bunlardır:

Qurani-Kərim: Uca Allah onu Peyğəmbəri Muhammədə -sallallahu aleyhi va səlləm- nazil etmişdir.

Tövrat: Uca Allah onu Peyğəmbəri Musaya -aleyhissələm- nazil etmişdir.

İncil: Uca Allah onu Peyğəmbəri İsaya -aleyhissələm- nazil etmişdir.

Zəbur: Uca Allah onu Peyğəmbəri Davuda -aleyhissələm- nazil etmişdir.

İbrahimin səhifələri: Uca Allah onu Peyğəmbəri İbrahimə -aleyhissələm- nazil etmişdir.

**Dördüncü rükun:** Rəsullara iman.

Uca Allah buyurur:

﴿وَلَقَدۡ بَعَثۡنَا فِي كُلِّ أُمَّةٖ رَّسُولًا أَنِ ٱعۡبُدُواْ ٱللَّهَ وَٱجۡتَنِبُواْ ٱلطَّٰغُوتَ﴾ [النحل: 36]

﴿Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”–(deyə,) peyğəmbər göndərdik﴾. (ən-Nəhl: 36).

Uca Allahın hər ümmətə, heç bir şəriki olmayan, tək olan Allaha ibadət etməyə, Ondan başqasına ibadət edilənləri inkar etməyə dəvət edən rəsul göndərməsini qəti şəkildə təsdiq etmək.

Onların hamısı bəşər övladıdır, Uca Allahın qulları olan kişilərdir. Onlar doğru danışan, doğru danışdıqları təsdiqlənən, təqvalı, əmin, doğru yola yönəldən və özləri də doğru yol üzərində olan kimsələrdir. Uca Allah onların doğruluqlarına dəlalələt edən möcüzələrlə dəsdəkləmişdir. Onlar Allahın

bütün göndərdiklərini insanlara təbliğ etmişdir. Onların hamısı, açıq-aşkar haqq və aydın hidayət üzərində olan kimsələrdir.

Dinin əsası (əqidə) məsələlərində ilk peyğəmbərdən sonuncu peyğəmbərə qədər hamısının dəvət eynidir. Bu, Uca Allahı ibadətdə təkləşdirmək və Ona heç bir şeyi şərik qoşmamaqdır.

**Beşinci rükun:** Axirət gününə iman.

Uca Allah buyurur:

﴿ٱللَّهُ لَآ إِلَٰهَ إِلَّا هُوَۚ لَيَجۡمَعَنَّكُمۡ إِلَىٰ يَوۡمِ ٱلۡقِيَٰمَةِ لَا رَيۡبَ فِيهِۗ وَمَنۡ أَصۡدَقُ مِنَ ٱللَّهِ حَدِيثٗا﴾[النساء: 87]

﴿Allah, Özündən başqa heç bir məbud olmayandır. (O,) Sizi qiyamət günündə mütləq (bir yerə) toplayacaqdır. Bunda əsla şübhə yoxdur. Allahdan daha doğru danışan kim ola bilər?﴾. (ən-Nisa: 87).

Uca Rəbbimizin müqəddəs kitabında xəbər verdiyi və ya Peyğəmbərimiz Muhammədin -sallallahu aleyhi va səlləm- barəsində söylədiyi, məsələn: insanın vəfatı, öldükdən sonra dirilməsi, insanların məhşərə toplnması və həmçinin şəfaətin, tərəzinin, hesaba çəkilmənin, Cənnətin və Cəhənnəmin haqq olması və s. bu kimi axirət günü ilə əlaqəli xəbərləri qəti şəkildə təsdiq etmək.

**Altıncı rükun:** Qədərin xeyrinə və şərrinə iman.

Uca Allah buyurur:

﴿إِنَّا كُلَّ شَيۡءٍ خَلَقۡنَٰهُ بِقَدَرٖ﴾[القمر: 49]

﴿Biz hər şeyi (əzəldən təqdir etdiyimiz) bir qədər ilə yaratdıq﴾. (əl-Qəmər: 49).

Bu dünyada yaratılmışların başına gələn hər şey, heç bir şəriki olmayan Uca Allahın elmi, qüdrəti və yönətməsi ilə baş verdiyinə, bu qədərlərin insanın yaradılışdan öncə yazıldığına,

eyni zamanda, insanın istək və iradəsi olduğuna, etdiyi fellərin həqiqətən faili olduğuna, lakin bütün bunların da, Allahın elmindən, iradəsi və istəyindən kənara çıxmadığına etiqad etmək.

Qədərə iman dörd mərtəbə üzərində bina edilmişdir. Bunlar aşağıdakılardır:

**Birincisi:** Allahın elminin hər şeyi əhatə etdiyinə iman etmək.

**İkincisi:** Allahın qiyamət gününə qədər olan hər şeyi yazmasına iman etmək.

**Üçüncüsü:** Allahın həyata keçən istəyinə və kamil qüdrətinə, istədiyi şeyin oduğuna, istəmədiyi şeyin isə olmadığına iman etmək.

**Dördüncüsü:** Allahın hər şeyin yaradıcısı olduğuna və yaratdıqları arasında Onun heş bir şəriki olmadığına iman etmək.

## Dəstəmazı öyrənirəm

Uca Allah buyurur:

﴿إِنَّ ٱللَّهَ يُحِبُّ ٱلتَّوَّٰبِينَ وَيُحِبُّ ٱلۡمُتَطَهِّرِينَ﴾ [البقرة: 222]

﴾Şübhəsiz ki, Allah çox tövbə edənləri və pak olanları sevər﴿. (əl-Bəqərə: 222).

Peyğəmbər -sallallahu aleyhi va səlləm- buyurur: "Mənim bu dəstəmazım kimi dəstəmaz al". Namazın çox önəmli olmasının səbəblərindən biri də, Uca Allahın, namazdan öncə dəstəmaz alınmasını əmr etməsi və namazın səhih olması üçün dəstəmazın olmasını şərt etməsidir. Dəstəmaz, namazın açarıdır. Namazın fəzilətini dərk etmək, insanın qəlbini namazları vaxtı-vaxtında əda etməyə təşviq edir. Peyğəmbər -sallallahu aleyhi va səlləm- buyurur: "Təmizlik imanın yarısıdır ... Namaz nurdur". Peyğəmbər -sallallahu aleyhi va səlləm-

başqa bir hədisdə belə buyurmuşdur: "Kim dəstəmaz alarsa və bunu gözəl bir şəkildə edərsə, günahları bədənindən çıxar".

Beləliklə də qul, dəstəmaz almaqla həm hissi olaraq təmizlənmiş, həm də bu ibadəti yalnız Allahın razılığı üçün və peyğəmbərin - sallallahu aleyhi va səlləm- sünnəsinə müvafiq qaydada, mənəvi olaraq təmizlənmiş halda Rəbbinə yönəlmiş olar.

Dəstəmazın vacib olduğu ibadətlər:

1- İstər fərz, istərsə də nafilə namaz üçün.

2- Kəbəni təvaf edərkən.

3- Qurani-Kərimə toxunarkən.

Tahur (Təmiz) su ilə dəstəmaz və qüsl alıram:

Tahur su: Bu, göydən yağan, yerdən çıxan və suya əlavə edilmiş hər hansı bir maddə ilə suyun üç vəsfi: rəngi, iyi və dadı dəyişməyən, əsil yaradılış özəllikləri üzərində qalan suya deyilir.

Dəstəmazı öyrənirəm

**Birinci addım:** Niyyət etmək. Niyyətin yeri qəlbdir. Mənası isə: qəlbin Uca Allaha yaxınlaşmaq üçün ibadəti etməyə qərarlı olmasıdır.

**İkinci addım:** Əlləri yumaq.

Üçüncü addım: Madmada.

Madmada: Suyu ağızda dövr etdirdikdən sonra ifraz etməkdir.

**Dördüncü addım:** İstinşaq və istinsar etmək.

İstinşaq: Sağ əli ilə suyu, hava ilə birğə burunun dərinliyinə çəkməkdir.

Sonra istinsar etmək. İstinsar: Suyu burnuna çəkdikdən sonra sol əli ilə hava ilə birğə suyu burnundan ifraz etməkdir.

Beşinci addım: Üzü yumaq.

## Üzün həddi:

Üz: Başqası ilə qarşı-qarşıya gəldikdə üzümüzün görünən hissəsidir.

Üzün enləməsinə həddi, bir qulaqdan digər qulağa qədər olan hissəsidir.

Üzün uzunlamasına həddi, saçın adətən bitdiyi yerlərdən, çənənin son həddinə qədər olan hissəsidir.

Üzü yumaq dedikdə bura, üzdə seyrək tükləri, həmçinin, ağlıq və izarı da yumaq daxildir.

Ağlıq: Qulaq məməsiylə izarın arasında olan tüksüz hissəsidir.

İzar: Başın daxilinə nüfuz edən qulaq dəliyinə paralel olaraq yerləşən kəllə və üz sümüklərini biri birindən ayıran sümüyün üzərindəki tüklərdir.

Üzü yumaq dedikdə bura, sıx saqqala sahib olan kimsələrin, saqqalın zahirini və saqqalın aşağı doğru uzanan hissəsini yumaq daxildir.

**Altıncı addım:** Əlləri barmaqların ucundan başlayaraq dirsəklərə qədər yumaq.

Qolları yuyarkən dirsəkləri də yumaq, fərz olan yumağa daxildir.

**Yeddinci addım:** İki əllə bütün başa qulaqlarla birgə bir dəfə məsh çəkmək.

İki əlini başın ön tərəfindən başlayaraq arxasına qədər aparır sonra başladığı yerə qədər geri qaytarır.

İki şəhadət barmağını qulaqlarının içinə daxil edir.

Baş barmaqları ilə qulaqların zahirinə məsh edir. Beləliklə də, qulaqların həm zahirini, həm də daxilini məsh etmiş olur.

**Səkkizinci addım:** Ayaq barmaqlarından başlayaraq, topuqlar da daxil olmaqla, ayaqları topuqlara qədər yumaq.

Topuqlar: Baldırın aşağı hissəsində çıxıntılı iki sümüyün adıdır.

Dəstəmaz bu hallarda pozulur:

1. Kiçik və böyük su başına çıxmaq, yel, məni (sperma) və məzi (məzi: ağ, yumuşaq və yapışqan sudur. O, oynaşmada və ya cinsi əlaqəni fikirləşdikdə, şəhvətsiz və atılmayaraq çıxır) kimi Iki ifrazat orqanından çıxan hər şey.

2. Ağlın dərin yuxuya, özündən getmə, sərxoşluq və dəlilik kimi səbəblərdən getməsi.

3. Cənabət, heyz və nifas kimi qüsulu vacib edən hər şey.

4. İnsan, kiçik və böyük su başına çıxdıqdan sonra nəcasətdən təmizlənməsi vacibdir. Bu təmizlənmə ya tahur suyla olmalıdır. Bu, daha fəzilətlidir. Yaxud: daş, kağız, parça və s. bunlara bənzəri şeylərlə olmalıdır. Əgər nəcasətdən: daş, kağız, parça və s. bu kimi şeylərlə təmizlənərsə, bu zaman həmin əşyaların pak və nəcasətin məxrəcini ən azı üç dəfə və ya daha artıq sürtməklə təmizlənməsi şərtdir.

## Xuflara və corablara məsh çəkmək.

Xuflar və corablar ayaqda olduğu halda, ayaqlar yuyulmadan onların üzərin əməsh çəkmək caizdir. Lakin bunun bəzi şərtləri vardır:

1. Xuflar və ya corablar, böyük və kiçik hədəsdən kamil təmzilənib, ayaqlar yuyuduqdan sonra geyinilməlidir.

2. Xuflar və ya corablar təmiz olub, nəcis olmamalıdır.

3. Xuflar və ya corablar üzərinə məsh çəkmək şəriətin təyin etdiyi müəyyən müddət ərzində olmalıdır.

4. Xuflar və ya corablar halal olmalıdırlar. Oğurlanmış yaxud qəsb edilmiş olmamalıdır.

Xuflar: Ayağa geyilən, nazik dəri və s. bu kimi şeylərdən hazırlanan, ayaqları örtən ayaqqabılara bənzər geyimdir.

Corablar: İnsanın, parça və s. bu kimi şeylərdən hazırlanan, ayağına geyinilən şeydir.

Xuflara məsh çəkməyin şəri hikməti:

Bunun hikməti, xüsusən qış və şiddətli soyuq vaxtarı və ya səfərdə olarkən xufu və corabı çıxarıb ayaqları yumağa çətinlik çəkən müsəlmanara asanlıq və yüngüllük olması üçündür.

Məshin müddəti:

Muqim (səfərdə olmayan, öz yaşadığı yerdə olan insan) üçün bir gün, bir gecədir. (Yəni: 24 saat).

Müsafir üçün isə üç gün, üç gecədir. (Yəni: 72 saat).

Məsh müddətinin hesablanması, dəstəmaz pozulduqdan sonra corab və ya xuflara ilk məsh çəkildikdən sonra başlayır.

Xuf və corablara məshin edilmə qaydası:

1. Əllər isladılır.

2. Əlin içi ilə ayaq barmaq uçlarının üst hissəsindən başlayaraq, baldırın başlanğıcına qədər ayağın üstünə məsh çəkilir.

3. Sağ ayaq sağ əl ilə, sol ayaq sol əl ilə məsh edilir.

Məshi batil edən amillər:

1. Qüslu vacib edən hallar.

2. Məsh müddətinin bitməsi.

## Qüsl

Əgər kişi və ya qadın cinsi əlaqədə olarsa yaxud onlardan ayıq və ya yuxulu halda məni şəhvətlə ifraz olarsa, onların namaz yaxud təharət gərəkdirən əməlləri əda edə bilmələri üçün qüsul almaları vacibdir. Həmçinin qadın, heyz və ya nifasdan təmizləndikdə sonra onun namaz yaxud təharət gərəkdirən əməlləri əda edə bilməsi üçün qüsul alması vacibdir.

Qüslun alınma qaydası aşağldakı kimidir:

Müsəlman bir kimsə, qüsul alarkən madmada və istinşaq etməklə yanaşı bütün bədənini quru yer qalmayacaq bir şəkildə su ilə yumalıdır. Əgər bütün bədənini su ilə yuyarsa, bu zaman böyük hədəs (qüslu vacib edən hal) aradan qalxar və təmizlik tamamlanar.

Cənabətli insanın qüsl alana qədər etməsi qadağan olan əməllər:

1. Namaz qılmaq.

2. Kəbəni təvaf etmək.

3. Məsciddə qalmaq. Amma məsciddə oturmamaq şərti ilə oradan ötüb keçmək caizdir.

4. Qurani-Kərimə toxunmaq.
5. Quran oxumaq.

## Təyəmmüm

Əgər müsəlman, dəstəmaz və ya qüsul almaq üçün su tapa bilməzsə yaxud xəstəlik və s. bu kimi səbəblərdən dolayı sudan istifadə edə bilməzsə və namazın vaxtının çıxmasından qorxarsa, bu zaman o, torpaqla təyəmmüm etməlidir.

Təyəmmümün qaydası:

Təyəmmüm edən kimsəən birinci iki əlini torpağa bir dəfə vurur sonra iki əlini üzünü daha sonra isə sol əlini sağ əlinin üzərinə və sağ əlidə sol əlinin üzərinə sürtərək məsh edir.

Təyəmmüm bu hallarda pozulur:

1- Dəstəmazı batil edən şeylər təyəmmümü də batil edir.

2- Təyyəmmüm aldığı ibadətə başlamazdan öncə su tapılarsa.

## Namazı öyrənirəm

Uca Allah, müsəlman kimsəyə bir gün və gecə ərzində beş vaxt namaz qılmasını fərz etmişdir: Bu namazlar: Fəcr, zöhr, əsr, məğrib və işa namazlarıdır.

Namaza hazırlaşıram

Müsəlman kimsə, namaz vaxtı daxil olduqda kiçik hədəsdən dəstəmaz almaqla, böyük hədəsdən isə qüsul almaqla təmizlənir.

Böyük hədəs: Müsəlmana qüslu vacib edən haldır.

Kiçik hədəs: Müsəlmana dəstəmazı vacib edən haldır.

Müsəlman, təmiz paltarda, nəcasətdən təmiz olan bir məkanda və övrət yeri örtülü halda namaz qılır.

Müsəlman, namaz vaxtı daxil olduqda, namaza layiqli və bədənini örtən paltarlar geyinərək namaza hazırlaşır. Kişinin namazda göbəklə diz arasından olan hər hansı bir hissəni açması icazəli deyildir.

Amma qadın, namazda üzü və əlləri müstəsna olmaqla bütün bədənini örtməsi vacibdir.

Müsəlman, namaz qılarkən namaza xas olan sözlərdən başqa bir söz danışmaz. Camaat namazında imamın qiraətini dinləyər. Namazında sağa sola yönəlməz. Əgər namaza xas olan sözləri əzbərləməkdən aciz olarsa, bu zaman namaz bitənə qədər Allahı zikir edib, Ona təsbih edər (Yəni: "Subhənallah, Əlhəmdulilləh, Lə iləhə illəllah, Allahu Əkbər"- deyər). Lakin bununla yanaşı o, həm namazı, həm də namaza xas olan sözləri öyrənməyə tələsməlidir.

Namazı öyrənirəm

**Birinci addım:** Əda etmək istədiyim fərz namazı üçün niyyət etmək. Niyyət dil ilə deyilməz, onun yeri qəlbdir.

Dəstəmaz aldıqdan sonra qibləyə yönəlirəm, əgər gücüm çatırsa namazı ayaq üstü qılıram.

**İkinci addım:** Əllərimi çiyinlər bərabərliyində qaldırıram və namaza başlamağa niyyət edərək "Allah Əkbər" deyirəm.

**Üçüncü addım:** Sünnəddə varid olan istiftəh duasını oxuyuram. Bu dualardan biri də aşağıdakıdır:

«سبحانك الله وبحمدك، وتبارك اسمك، وتعالى جدّك، ولا إله غيرك».

[Subhənəkə Allahummə va bihəmdi-kə va təbarəkəs-mukə və təalə cəddukə va lə iləhə ğayrukə] "Allahım! Sən pak və müqəddəssən. Sənə həmd olsun. Sənin adın mübarək, əzəmə-tin ucadır. Səndən başqa məbud yoxdur!"

**Dördüncü addım:** Lənətlənmiş şeytanın şərində Allaha sığınaraq deyirəm:

«أَعُوذُ بِاللَّهِ مِنَ الشَّيطَانِ الرَّجِيمِ».

[Əuzu billəhi minəş-şeytanirracim] "Lənətlənmiş şeytandan Allaha sığınıram!".

**Beşinci addım:** Hər rükətdə Fatihə sürəsini oxuyuram. Fatihə surəsi belədir:

(1) «بسم الله الرحمن الرحيم».

[Bismilləhir-rahmənir-rahim] ﴿Mərhəmətli, Rəhmli Allahın adı ilə﴾.

(2) «الْحَمْدُ للهِ رَبِّ الْعَالَمِينَ».

[Əlhəmdu lilləhi Rabbil-aləmin] ﴿Həmd, aləmlərin Rəbbi olan Allaha məxsusdur﴾.

(3) «الرَّحْمنِ الرَّحِيمِ».

[ər-Rahmənir-Rahim] ﴿Mərhəmətli və Rəhmli olana﴾.

(4) «مَالِكِ يَوْمِ الدِّينِ».

[Məliki yəvmid-din] ﴿Din gününün Sahibinə!﴾.

(5) «إِيَّاكَ نَعْبُدُ وإِيَّاكَ نَسْتَعِينُ».

[İyyəkə nəabudu va iyyəkə nəstəin] ﴿Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik!﴾.

(6) «اهدِنَا الصِّرَاطَ المُستَقِيمَ».

[İhdinəs-siratəl-mustəqim] ﴿Bizi doğru yola yönəlt!﴾.

(7) «صِرَاطَ الَّذِينَ أَنعَمتَ عَلَيهِمْ غَيرِ المَغضُوبِ عَلَيهِمْ وَلاَ الضَّالِّينَ».

[Siratalləzinə ənamtə aleyhim ğayril mağdubi aleyhim valaddallin] ﴿Nemət bəxş etdiyin kəslərin yoluna. Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!﴾.

Hər namazda yalnız birinci və ikinci rükətdə Fatihə surəsindən sonra Qurani-Kərimdən hər hansı bir surə oxuyuram. Bu, vacib deyildir, lakin bunu etməkdə böyük əcrə vardır.

**Altıncı addım:** "Allah Əkbər" deyərək rüku edirəm. Rükuda belimi düz tutana və əllərimi isə dizlərimin üzərinə barmaqlarım aralı bir şəkildə qoyana qədər əyilirəm. Sonra rükuda üç dəfə:

«سبحان ربي العظيم».

[Subhənə rabbiyəlazim], "Əzəmətli Rəbbim pak və müqəddəsdir!" - zikrini deyirəm.

Yeddinci addım:

«سمع الله لمن حمده».

[Səmi Allahu limən həmidəh] "Allah Ona həmd edəni eşitdi!" - zikrini deyərək rükudan qalxıram və əllərimi çiyinlər bərabərində qaldırıram. Bədənim düz dayandıqda sonra

«ربنا ولك الحمد».

[Rabbənə və ləkəl-həmd] "Ey Rəbbimiz! Sənə həmd olsun!"- zikrini deyirəm.

**Səkkizinci addım:** (Allahu Əkbər) deyirəm və iki əl, iki diz, iki ayaq, alın və burun üzərində səcdə edirəm və səcdəmdə üç dəfə:

«سبحان ربي الأعلى».

[Subhənə Rabbiyəl-Əla] "Ən Uca Rəbbim pak və müqəddəsdir!" - zikrini deyirəm.

**Doqquzuncu addım:** (Allahu Əkbər) deyirəm, belim düz olana qədər başımı səcdədən qaldırıram, sol ayağımı yerə sərib üzərində oturuRam və sağ ayağımı dik tutub:

«رب اغفر لي».

[Rabbiğ-fir li] "Rəbbim, məni bağışla! Rəbbim, məni bağışla!" - zikrini deyirəm.

**Onuncu addım:** (Allahu Əkbə) deyirəm və birinci səcdəni etdiyim kimi ikinci dəfə səcdə edirəm.

**On birinci addım:** Səcdədən (Allahu Əkbər) deyərək, düz durana qədər qalxıram və birinci rükətdə etdiklərimi namazın digər rükətlərdə də edirəm.

Zöhr, əsr, məğrib və işa namazlarından ikinci rükətdən sonra birinci təşəhhüdü oxumaq üçün otururam. Birinci təşəhhüd belədir:

«التحيات لله والصلوات والطيبات، السلام عليك أيها النبي ورحمة الله وبركاته، السلام علينا وعلى عباد الله الصالحين، أشهد أن لا إله إلا الله، وأشهد أن محمداً عبده ورسوله».

[ət-Təhiyyətu lilləhi, vas-saləvatu, vat-tayyibətu, əs Sələmu aleykə əyyuhən-nəbiyyu va rahmətullahi va bərakətuhu, əs Sələmu aleynə va alə ibədil-ləhis-Sali-hin. Əşhədu əllə iləhə illəllahu va əşhədu ənnə Muhammədən abduhu va rasuluhu], "Salamlar, dualar və gözəl şeylər Allaha aiddir. Ey Peyğəmbər, sənə Allahın salamı, mərhəməti və bərəkəti olsun! Bizə və Allahın əməl isaleh qullarına salam olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur və şahidlik edirəm ki, Muhamməd Onun qulu və elçisidir". Sonra üçüncü rükətə qalxıram. Hər namazın sonuncu rükətində, son təşəhhüdü oxumaq üçün otururam. Son təşəhhüd belədir:

«التحيات لله والصلوات والطيبات، السلام عليك أيها النبي ورحمة الله وبركاته السلام علينا وعلى عباد الله الصالحين، أشهد أن لا إله إلا الله، وأشهد أن محمداً عبده ورسوله، اللهم صلِّ على محمد وعلى آل محمد، كما صليت على إبراهيم وعلى آل إبراهيم، إنك حميد مجيد، وبارك على محمد وعلى آل محمد، كما باركت على إبراهيم وعلى آل إبراهيم، إنك حميد مجيد».

[ət-Təhiyyətu lilləhi, vas-saləvatu, vat-tayyibətu, əs-Sələmu aleykə əyyuhən-nəbiyyu va rahmətullahi va bərakətuhu, əs-Sələmu aleynə va alə ibədil-ləhis-Sali-hin. Əşhədu əllə iləhə illəllahu va əşhədu ənnə Muhammədən abduhu va rasuluhu. Allahummə salli alə Muhammədin va alə əəli Muhamməd, kəmə salleytə alə İbrahimə va alə əəli İbrahimə, innəkə həmidun məcid. Allahummə bərik alə Muhammədin va alə əəli Muhamməd, kəmə bəraktə alə İbrahimə va alə əəli İbrahimə, innəkə həmidun məcid] "Salam, dualar və gözəl şeylər Allaha aiddir. Ey Peyğəmbər, sənə salam olsun, Allahın mərhəməti və Onun bərəkəti (olsun)! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Mən şahidlik edirəm ki, Allahdan başqa məbud yoxdur və şahidlik edirəm ki, Muhamməd Onun qulu və elçisidir. Allahım! İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhamməde və Muhammədin ailəsinə də xeyir-dua ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şanşöhrətlisən! Allahım! İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi,

Muhamməddə və Muhamməddin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şanşöhrətlisən!".

**On ikinci addım:** Bu duanı oxuduqdan sonra namazdan çıxmağa niyyət edərək başını sağ tərəfə çevirib:

«السَّلام عليكم ورحمة الله».

[əs-Sələmu aleykum va rahmatullah] "Allahın salamı və rəhməti sizin üzərinizə olsun" deyirəm. Sonra başını sol tərəfə çevirib:

«السَّلام عليكم ورحمة الله».

[əs-Sələmu aleykum va rahmatullah] "Allahın salamı və rəhməti sizin üzərinizə olsun" deyirəm. Bununla da namazı əda etmiş oluram.

## Müsəlman qadının hicabı

Uca Allah buyurur:

﴿Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, (naməhrəm yanında bütün bədənlərini örtən) örtükləri ilə örtünsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhmlidir﴾. (əl-Əhzab: 59).

Uca Allah, müsəlman qadına hicab geyinməyi, övrətini və bütün vücudunun yad kişilərdən, yaşadığı ölkənin adətinə yuğun olan geyimlə örtünməyi vacib etmiş və ona, yalnız əri və ona məhrəm olan kişilər qarşısında hicabını açmasına izin vermişdir. Məhrəm kişilər: Müsəlman bir qadının əbədi olaraq onlarla evlənməsinə izin verilməyən kimsələrdir. Bunlar aşağıdakılardır: Ata, atanın atası, atanın atasının atası və bu şəkildə yuxarıya doğru gedən bütün atalar. Oğul, oğulun oğlu, oğulun oğlunun oğlu və bu şəkildə aşağıya doğru gedən bütün oğullar. Əmilər. Dayılar. Qardaş. Qardaş oğlu. Bacı oğlu. Ananın əri. Ərin atası, atasının atası və bu şəkilə yuxarıya doğru gedən ərin ataları. Ərin oğlu, oğlunun oğlu və bu şəkildə aşağıya doğru

gedən ərin oğulları. Süd qardaşı. Süd verən qadının əri. Nəsəb (nəsil) yoluyla haram olan şəxslər, süd yoluyla da haram olur.

Müsəlman qadın geyimində bir neçə qaydaya əməl etməlidir:

1. Qadın geyimi bütün bədəni örtən geyim olmalıdır.

2. Qadın geyimi bəzəy üçün geyindiyi geyimdən olmamalıdır.

3. Qadın geyimi bədənini göstərən şəffaf geyim olmamalıdır.

4. Qadın geyimi bədənini vəsf etməyəcək dərəcədə geniş geyim olmalıdır.

5. Qadın geyimi ətirli olmamalıdır.

7. Qadın geyimi kişi geyiminə oxşamamalıdır.

8. Qadın geyimi qeyri-müsəlman qadınların ibadət və bayramlarında istifadə etdikləri geyimlərə oxşamamalıdır.

Mömin kimsənin bəzi sifətləri:

Uca Allah buyurur:

﴿إِنَّمَا ٱلْمُؤْمِنُونَ ٱلَّذِينَ إِذَا ذُكِرَ ٱللَّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ ءَايَٰتُهُۥ زَادَتْهُمْ إِيمَٰنًا وَعَلَىٰ رَبِّهِمْ يَتَوَكَّلُونَ﴾ [الأنفال: 2]

﴾Möminlər o kəslərdir ki, Allah anıldığı zaman qəlbləri qorxudan titrəyər, Onun ayələri onlara oxunduqda imanları artar, yalnız öz Rəbbinə təvəkkül edər﴿. (əl-Ənfal: 2).

Sözündə doğrudur, yalan danışmaz.

Əhdinə və vədinə vəfalıdır.

Mübahisə etdikdə pis sözlər söyləməz.

Əmanəti sahibinə qaytarar.

Öz nəfsi üçün istədiyi bir şeyi müsəlman qardaşı üçün də istər.

Səxavətlidir.

İnsanlara yaxşılıq edəndir.

Qohumluq əlaqələrini birləşdirəndir.

Uca Allahın qədərinə razı olar, xoş halında Allah şükür edər, sıxıntı halında isə səbr edər.

Həya sahibidir.

Məxluqata qarşı mərhəmətlidir.

Qəlbi kin-küdürətdən, əzaları isə başqalarına qarşı haqsızlıq etməkdən salamatdır.

İnsanları bağışlayar.

Sələm yemir və sələmlə müamilə etmir.

Zina etmir.

Spirtli içki içmir.

Qonşularına yaxşılıq edir.

Zülm və xəyanət etmir.

Oğurluq və hiyləgərlik etmir.

Valideynləri qeyri-müsəlman olmasalar belə, onlarla gözəl davranır və yaxşı işlərdə onlara itaət edir.

Övladlarını gözəl əxlaq üzərində tərbiyələndirir, onlara şəri vacibatları əmr ediri və rəzalət və haram olan şeylərdən çəkindirir.

Qeyri-müsəlmanların dini işlərində və ya adət-ənənələrində onlara xas xüsusiyyətlərdə onlara bənzəmir.

## Səadətim, dinim İslamdadır.

Uca Allah buyurur:

﴿مَنۡ عَمِلَ صَٰلِحٗا مِّن ذَكَرٍ أَوۡ أُنثَىٰ وَهُوَ مُؤۡمِنٞ فَلَنُحۡيِيَنَّهُۥ حَيَوٰةٗ طَيِّبَةٗۖ وَلَنَجۡزِيَنَّهُمۡ أَجۡرَهُم بِأَحۡسَنِ مَا كَانُواْ يَعۡمَلُونَ﴾ [النحل: 97]

﴿Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq﴾. (ən-Nəhl: 97).

Müsəlmanın qəlbinə sevinc, genişlik və səadət bəxş edən ən böyük amillərdən biri də, onun, diriləri, ölüləri və bütləri vasitə etmədən Rəbbi ilə birbaşa əlaqəsinin olmasıdır. Uca Allah Qurani-Kərimdə, Onun, qullarına daima yaxın olduğunu, onları eşidib dualarını qəbul etdiyini xəbər vermişdir. Uca Allah bu barədə belə buyurur:

﴿وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ فَلْيَسْتَجِيبُوا لِي وَلْيُؤْمِنُوا بِي لَعَلَّهُمْ يَرْشُدُونَ﴾ [البقرة: 186]

﴿Əgər qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən (onlara) yaxınam, Mənə dua edənin duasını qəbul edərəm. Gərək onlar da, Mənim çağırışımı qəbul etsinlər və Mənə iman gətirsinlər ki, bəlkə (bununla) doğru yola yönəlsinlər﴾. (əl-Bəqərə: 186).

Uca Allah bizə, Ona dua etməyi əmr etmiş və bunu, müsləmanı Rəbbinə yaxınlaşdıran ən əzəmətli ibadətlərdən biri etmişdir. Uca Allah belə buyurur:

﴿وَقَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ﴾ [غافر: 60]

﴿Rəbbiniz buyurdu: “Mənə dua edin, Mən də duanıza cavab verim!﴾. (Ğafir: 60).

Saleh müsəlman, daima Rəbbinə möhtacdır, daima Ona qarşısında dua edər və saleh əməllərlə Ona yaxınlaşmağa səy göstərər.

Uca Allah, bizi bu kainatda əbəs yerə deyil, əksinə, əzəmətli bir hikmət üçün yaratdı. Bu, tək olan, şəriki olmayan Uca Allaha ibadət etməkdir. O, bizüm üçün fərdi və sosial həyatımızın bütün sahələrini nizamlayan Rəbbani, əhatəli bir dini qanun etmişdir. Uca Allah, bu adil şəriət vasitəs ilə bizim üçün həyati önəm daşıyan beş amili: dinimizi, canımızı, namusumuzu, ağlımızı və malımızı qorumuşdur. Kim şəriətin əmrlərinə tabe olub, haramlardan uzaq olaraq yaşayarsa, o, həyati önəm daşıyan bu beş amili qorumuş olar və heç şübhəsiz, xoşbəxt və rahat bir həyat içində yaşayar.

Müsəlmanın Rəbbi ilə olan əlaqəsi dərindir. Bu əlaqəsi ona, sakitlik, psixoloji rahatlıq, sükunət, güvənlik, sevinc və Uca Rəbbi ilə birgə olmaq duyğusunu bəxş edir və Allahın mömün

quluna olan dostluğunu və qayğısını hiss etdirir. Uca Allah buyurur:

﴿ٱللَّهُ وَلِيُّ ٱلَّذِينَ ءَامَنُوا۟ يُخْرِجُهُم مِّنَ ٱلظُّلُمَٰتِ إِلَى ٱلنُّورِ﴾ [البقرة: 257]

﴾Allah iman gətirənlərin dostudur, onları zülmətlərdən nura çıxarar﴿. (əl-Bəqərə: 257).

Bu əzəmətli əlaqə, Rəhmana ibadətdən həzz almağa, Onunla görüşmək həsrətinə səbəb olan, imanın şirinliyini hiss edərək qəlbini səadət səmasında dövr etdirən bir duyğu halıdır.

Bu şirinliyi, yalnız saleh əməlləri və pisliklərdən uzaq durmağı dadan kimsələr təsvir edə bilər. Elə buna görə də Muhamməd Peyğəmbər -sallallahu aleyhi va səlləm- belə demişdir: "Rəbb olaraq Allahdan, din olaraq İslamdan, peyğəmbər olaraq Muhamməddən razı olan kimsə imanın ləzzətini dadmışdır".

Bəli, əgər insan, özünü daima Yaradanının qarşısında oluğunu hiss edərsə, Onu, ən gözəl isimləri və sifətləri ilə tanıyarsa, Ona, sanki Onu görürmüş kimi ibadət edərsə və bu ibadətində ixlaslı olub, bununla yalnız Uca Allahın razılığını istərsə, o kimsə, dünyada gözəl və xoşbəxt həyat sürər və axirətdə yaxşı aqibətə nail olar.

Bu dünyada mömінin başına gələn müsibətlərin hərarəti, qəlbindəki yəqinliyin sərinliyi ilə və həmçinin, Uca Allahın qədərinə razı olmaq, xeyr və şərr olmaqla başına gələn Allahın bütün qədərlərinə görə Allaha həmd edib və tam bir şəkildə razı qalmaqla aradan qalxa bilər.

Bir müsəlmanın saadət və rahatlığını artırması üçün həris olması gərəkən xüsuslardan biri də, onun, Uca Allahı çox zikir etməsi və Qurani-Kərimi oxumasıdır. Uca Allah bu barədə belə buyurur:

﴿ٱلَّذِينَ ءَامَنُوا۟ وَتَطْمَئِنُّ قُلُوبُهُم بِذِكْرِ ٱللَّهِ ۗ أَلَا بِذِكْرِ ٱللَّهِ تَطْمَئِنُّ ٱلْقُلُوبُ﴾ [الرعد: 28]

﴿Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə rahatlıq tapar﴾. (ər-Rad: 28).

Müsəlman kimsə, Uca Allahı nə qədər çox zikr edərsə, nə qədər çox Quran oxuyarsa, Allaha olan bağlılığı bir o qədər də artar, nəfsi təmizlənər və iman güclənər. Həmçinin müsəlman, Uca Allaha bəsirət üzərində ibadət etməsi üçün dinini doğru mənbələrdən öyrənməyə həris olmalıdır. Buna görə də Peyğəmbər -sallallahu aleyhi va səlləm- belə demişdir: "Elm tələb etmək hər bir müsəlmana vacibdir". Onu yaradan Uca Allahın əmirlərinə, istər hikmətini bilsin, istər bilməsin, boyun əyib təslim olmalıdır. Uca Allah müqəddəs kitabında belə buyurmuşdur:

﴿وَمَا كَانَ لِمُؤۡمِنٖ وَلَا مُؤۡمِنَةٍ إِذَا قَضَى ٱللَّهُ وَرَسُولُهُۥٓ أَمۡرًا أَن يَكُونَ لَهُمُ ٱلۡخِيَرَةُ مِنۡ أَمۡرِهِمۡۗ وَمَن يَعۡصِ ٱللَّهَ وَرَسُولَهُۥ فَقَدۡ ضَلَّ ضَلَٰلٗا مُّبِينٗا﴾ [الأحزاب: 36]

﴿Allah və Onun Rəsulu bir iş haqqında hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadının öz işlərində başqa bir yol seçmək ixtiyarı yoxdur. Allaha və Onun Rəsuluna asi olan kəs, əlbəttə ki, açıq-aydın azmışdır﴾. (əl-Əhzab: 36).

Allahın salavat və salamı peyğəmbərimiz Muhammədin, onun ailəsinin və bütün səhabələrinin üzərinə olsun!

Bitdi

# Xülasə


Müqəddimə .... 4

Rəbbim Allahdır. .... 6

Peyğəmbərim Muhamməddir .... 8

-sallallahu aleyhi va səlləm- .... 8

Qurani-Kərim Rəbbimin kəlamıdır. .... 8

İslamın rükunları ilə tanış oluram .... 9

Üçüncü rükun: Zəkat vermək .... 10

Dördüncü rükün: Ramazan orucunu tutmaq. .... 11

İmanın əsaslarıyla tanış oluram .... 12

Dəstəmazı öyrənirəm .... 18

Üzün həddi: .... 19

Xuflara və corablara məsh çəkmək. .... 21

Qüsl .... 22

Təyəmmüm .... 23

Namazı öyrənirəm .... 23

Müsəlman qadının hicabı .... 28

Səadətim, dinim İslamdadır .... 30

Xülasə .... 34

# Get to Know about Islam

## in More Than 100 Languages

موسوعة الأحاديث النبوية
HadeethEnc.com

Encyclopedia of the Translations of the Prophetic Hadīths and their Commentaries

ISLAM HOUSE .com
IslamHouse.com

A Comprehensive Reference for Introducing Islam in the World's Languages

موسوعة القرآن الكريم
QuranEnc.com

Encyclopedia of the Translations of the Meanings and Interpretations of the Noble Qur'an

ما لا يسع أطفال المسلمين جهله
kids.islamenc.com

The Platform of What Muslim Children Must Know

موسوعة المحتوى الإسلامي
IslamEnc.com

A Selection of the Translated Islamic Content

بيان الإسلام
byenah.com

A Simplified Gateway for Introducing Islam and Learning its Rulings

Islamic Content Service Association in Languages

Da'wah, Guidance, and Community Awareness Association in Rabwah




978-603-8417-95-9

Az182